UOT 32 (327)

KÖNÜL QASIMOVA
Azərbaycan Respublikası Prezidenti Yanında
Dövlət İdarəçilik Akademiyasının doktorantı
gasimovakonulz@gmail.com

AZƏRBAYCAN VƏ NATO ÖLKƏLƏRİ ARASINDA HƏRBİ SAHƏDƏ QARŞILIQLI ƏLAQƏ MODELLERİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/158-163

Məqalə Azərbaycanın NATO-ya üzv ölkələrlə hərbi sahədə qarşılıqlı fəaliyyətinin xüsusiyyətlərinə həsr olumuşdur. Tədqiqatın məqsədi Azərbaycan Respublikasının Alyans ilə hərbi sahədə qarşılıqlı fəaliyyəti nümunəsindən istifadə edərək, onun beynəlxalq arenada öz maraqlarını kifayət qədər uğurla təbliğ edə bilməsini araşdırmaqdır. Müəllif bu məqsədə nail olmaq üçün bu əsər çərçivəsində Azərbaycanın hərbi siyasətinin müxtəlif aspektlərini əhatə edən ədəbiyyatları tədqiq etmiş və Bakını hərbi sahədə, NATO və Rusiya ilə əməkdaşlıq etməyə sövq edən amilləri araşdırılmışdır. Bu məqalədə həmçinin İkinci Qarabağ müharibəsi zamanı Azərbaycana əlverişli siyasi şərait yaradan Bakı ilə NATO-ya üzv ölkələri arasında əməkdaşlığın inkişaf qanunauyğunluqlarını göstərmək nəzərdə tutulur.

Açar sözlər: Azərbaycan, NATO, KTMT, Ermənistan-Azərbaycan münaqişəsi.

Giriş. Birinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra Azərbaycan iqtisadi inkişafa diqqət yetirmiş, xarici dövlətlərlə hərbi sahədə əməkdaşlığın qurulmasına səy göstərmişdir. Eyni zamanda, Azərbaycan silahlı qüvvələrin ən müasir silahlarla təchiz etməyə və beynəlxalq aləmdən Ermənistanla münaqişədə tutduğu mövqeyə siyasi dəstək almaq məqsədi daşımışdır. Xarici siyasət məqsədlərinə nail olmaq üçün ikitərəfli əlaqələrin strateji birləşməsi Azərbaycanı beynəlxalq sistemdə mövqeyini artırmışdır. Bu siyasətin təzahürü 2021-ci ildə Bakının Türkiyə ilə Şuşa Bəyannaməsi imzalaması [11] ardınca Rusiya ilə qarşılıqlı fəaliyyət haqqında bəyannamənin imzalanması olmuşdur [3]. Bu sənədlər Azərbaycanın Cənubi Qafqazda maraqları heç də həmişə üst-üstə düşməyən iki ən böyük qonşusu ilə balanslaşdırılmış münasibətlər qurmaq bacarığını nümayiş etdirmişdi. Bu sazişləri həm də Azərbaycanın əvvəlki illərdə həyata keçirdiyi hərbi sahədə xarici tərəfdaşlarla qarşılıqlı fəaliyyət siyasətinin məntiqi davamı kimi hesab etmək olardı. Bunun nəticəsi idi ki, əksər dövlətlərin və beynəlxalq təşkilatların 2020-ci ildə Ermənistan-Azərbaycan arasındakı müharibəyə siyasi reaksiyası təmkinli oldu. Bir çox NATO, Aİ, KTMT və daha geniş postsovet ölkələri münaqişənin sülh yolu ilə həllinin zəruriliyi barədə bəyanatlarla və mülki şəxslərə qarşı silahdan istifadə etməməyə çağırışlarla məhdudlaşmışdılar [8]. Beynəlxalq aləmin məsələyə bu cür yanaşması Bakının maraqlarına uyğun idi. İrəvan isə hələ müharibə başlamamışdan əvvəl tam olaraq əmin idi ki, münaqişə zonasında hərbi əməliyyatlar bərpa olunarsa, NATO və Aİ Azərbaycanın münaqişəni güc yolu ilə həll etmək cəhdinə açıq şəkildə mənfi münasibət bildirəcəklər. İrəvan həmçinin Azərbaycan tərəfini hücumu dayandırmağa məcbur edə biləcək KTMT-nin dəstəyinə ümid edirdi [1]. Digər tərəfdən COVID-19 pandemiyasının nəticələrini nəzərə alaraq, üçüncü ölkələrin təmkinli reaksiyasını onların diqqətinin daxili problemlərin həllinə yönəldiyini, bunun fonunda Cənubi Qafqazda baş verənlərdən çox az narahat olduqlarını söyləməklə izah etmək olardı. Bu yanaşmada Azərbaycanın dövlətlərlə hərbi sahədə əməkdaşlığın ikitərəfli əsasda mühüm yer tutduğunu da nəzərə almaq lazımdır.

Məqalədə aparılan təhlillər göstərir ki, NATO üçün fundamental əhəmiyyət kəsb etməyən məsələlərin həlli zamanı assosiasiyaya daxil olan kiçik dövlətlər öz maraqlarından çıxış edərək hərbi və hərbi-siyasi sahədə müstəqil siyasət apara bilərlər. Beləliklə, tədqiqat alyans daxilində blok nizam-intizamının hüdudlarını ortaya qoyur, eyni zamanda Avropa ölkələri ilə postsovet məkanı dövlətləri arasında hərbi-texniki əməkdaşlığın xüsusiyyətlərinin öyrənilməsinə töhfə verir. Tədqiqat apararkən etibarlı nəticələr əldə etmək üçün müəllif politologiyanın metodlarından, yəni qərar qəbuletmə sistemlərinin təhlili metodundan (qərar əsasında), fərdi halların təhlili metodundan (tip nümunələrdən

istifadə edərək mürəkkəb hadisənin öyrənilməsi) və institusional metodundan (təşkilatların və dövlət orqanlarının fəaliyyətinin öyrənilməsi) istifadə etmişdir. Bundan əlavə, müxtəlif hüquqi sənədlərdən istifadə hermenevtik metodun elementlərindən istifadəyə səbəb olmuşdur. Tədqiqatın empirik əsasını ictimai istifadədə olan geniş çeşidli mənbələr və ədəbiyyatlar təşkil etmişdir.

XX əsrin ortalarından başlayaraq beynəlxalq sistemin inkişafı çoxtərəfli siyasi və hərbi təşkilatların əhəmiyyətinin artması ilə yadda qalmışdır. Eyni zamanda, beynəlxalq təşkilatlarda mövqelərin əlaqələndirilməsi həm bürokratik prosedurları, həm də iştirak edən tərəflərin mövqeyinin nəzərə alınması zərurətinə görə uzun müddət tələb etmişdi. Bütün bunların fonunda dövlətlərin xarici siyasətində ikitərəfli münasibətlərin qurulması üçün perspektivli tərəfdaşları müəyyən etmək bacarığından daha çox asılı idi. Bu cür münasibətlər həmçinin daha geniş şəbəkə mərkəzli qarşılıqlı əlaqə konfiqurasiyaları üçün əsas ola bilərdi. Bununla belə, qarşılıqlı əlaqənin bu cür formalarından danışarkən biz heç də "şəbəkə diplomatiyası"nı nəzərdə tutmuruq ki, bu da İ.V.Zeleneva və D.A.İvanovskinin sözləri ilə desək; "onlar ən çox çoxtərəfli diplomatiya və şəbəkə strukturlarının inkişafı çərçivəsində öyrənilməlidir. Qərbdə isə tədqiqatçılar... qeyri-dövlət aktyorlarının və ictimai diplomatiyanın inkişafına diqqət yetirirdilər" Fikrimizcə, "şəbəkə mərkəzli qarşılıqlı əlaqə konfiqurasiyalarının" əsasları bu və ya digər assosiasiya, ittifaq, təşkilat çərçivəsində "əlaqəli" beynəlxalq münasibətlərdə müxtəlif sayda aktyorların qarşılıqlı təsiri nəticəsində formalaşmır. Qlobal və ya strateji məqsədlərə nail olmaq, xüsusilə də rəqəmsal diplomatiyanın imkanlarından istifadə nəticəsində deyil, qarşılıqlı fəaliyyəti taktiki problemlərin həllinə yönəlmiş aktyorlar arasında ikitərəfli münasibətlərin inkişafı nəticəsində formalaşmalıdır. Belə olan halda sərhədlər daxilində ya qarşıya qoyulmuş taktiki məqsədə nail olmaq mümkün olacaq, ya da bu qarşılıqlı əlaqə başa çatacaqdır. Bu cür münasibətlərin üstünlükləri qısa müddət ərzində konkret məqsədlərə nail olmağa yönəlmiş xarici siyasətin həyata keçirilməsində, eləcə də qarşılıqlı əlaqədə olmaya biləcək taktiki problemin həlli üçün müxtəlif tərəfdaşlardan paralel resursların cəlb edilməsi imkan yaradır. Qarşılıqlı fəaliyyətin qurulmuş formaları davamlı əməkdaşlıq modellərinə çevrilməsi mümkündür ki, bu da sonradan yeni tərəfdaşlarla əməkdaşlıq qurmaq üçün istifadə oluna bilərdi.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanandan sonra Azərbaycan neft satışı ilə iqtisadiyyatı, daha sonra isə silahlı qüvvələrini müasirləşdirmək üçün maliyyə imkanları əldə etdi. Eyni zamanda Bakı nəzərə aldı ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə baxmayaraq, onun ərazi bütövlüyünün bərpası tələblərinə praktiki olaraq beynəlxalq dəstək yoxdur. Bu, Bakının çoxvektorlu siyasətə keçidini müəyyən etdi və buna uyğun olaraq, regional güclərlə yanaşı, ölkə ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarının inkişafına üstünlük verərək "güclü ölkələr"lə əlaqələr qurmağa çalışırdı [12].

MDB ölkələrinin, o cümlədən Azərbaycanın təhlükəsizlik siyasətinin iqtisadi aspektlərinin sistemli şəkildə işıqlandırılması ilk dəfə A.Matveyev tərəfindən həyata keçirilmişdir O, Bakının hərbi məqsədlər üçün xərclərini qiymətləndirərək belə qənaətə gəlmişdir ki, Azərbaycan ərazi mübahisələrini güc yolu ilə həll etməyə hazırlaşır. V.Muxinin "Nezavisimaya qəzeti"də nəşr etdirdiyi "Hərbiləşdirilmiş Dövlətlər Birliyi" məqaləsinidə A.Matveyevin fikirlərini təkrarlayırdı [7]. 2000-2010-cu illərdə bir çox ekspertlər Azərbaycanın xarici və müdafiə siyasətinin xüsusiyyətlərini nəzərə almayan proqnozlar verirdilər. Onlar Azərbaycanın Ermənistana qarşı hipotetik təhdidlərin subyektiv qavrayışına əsaslanan versiyalar təqdim edildi. Məsələn, V.Korbutun yazırdı ki, Qarabağ cəbhəsində müharibə başlayarsa, BMT-nin mavi dəbilqəliləri və ya NATO qüvvələrinin bölgəyə gətirilməsi ehtimalı var ki, bu da Ermənistan və Rusiya üçün son dərəcə təhlükəlidi [6].

Azərbaycanlı analitik Cəsur Sümərənli (Məmmədov) isə "NATO-ya İrəli" əsərində Bakının hərbi siyasətinin formalaşması və inkişafına böyük diqqət yetirdiyini yazırdı. Əsərin leytmotivi ondan ibarət idi ki, Azərbaycan silahlı qüvvələrinin islahatı NATO-ya qəbul olunmaq üçün deyil, müharibəyə hazır ordunun yaradılması naminə aparılmalıdır. 2010-cu ildə həmin mütəxəssisin media ilə Azərbaycan silahlı qüvvələrinin qarşılıqlı əlaqələrinin tarixinə həsr olunmuş yeni əsərində isə hərbi inkişaf prosesləri ilə bağlı bəzi məlumatların geniş ictimaiyyətə çatdırılmasını müdafiə etdirdi [10, 72].

Azərbaycan və NATO əlaqələrində analiz üçün nümunə kimi Bolqarıstan və Çexiyanın seçilməsi bir sıra səbəblərlə bağlıdır. Birincisi, onlar ərazi və əhalinin sayına görə təxminən Azərbaycana

bərabərdirlər və bununla da orta ölkənin müqayisə edilə bilən tərəfdaşlarla qarşılıqlı əlaqəsinə nümunədirlər. İkincisi, hər üç ölkənin ümumi sosialist keçmişi var və eyni zamanda sosial-iqtisadi transformasiyaların aparılması zərurəti ilə üzləşmişdilər. Üçüncüsü, Bakı bir sıra enerji layihələrində Praqa və Sofiya ilə fəal əməkdaşlıq edir ki, bu da müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin multiplikativ effektini izləməyə imkan verirdi. Müqayisə üçün qeyd edək ki, postsovet məkanının bir çox dövlətləri, o cümlədən Azərbaycan Çexiya və Bolqarıstan üçün xarici iqtisadi fəaliyyətdə cəlbedici tərəfdaş olmaq üçün kifayət qədər maliyyə və ya karbohidrogen resurslarına malikdirlər.

Əgər Azərbaycanın vəzifələri yalnız silah-sursat əldə etməklə məhdudlaşsaydı, o, yalnız Çexiya ilə hərbi-texniki sahədə qarşılıqlı fəaliyyətə diqqət yetirə bilərdi. Buna baxmayaraq, Bakının siyasəti Qarabağ münaqişəsində erməni tərəfinə dəstəyi azaltmaq üçün geniş dövlətlərlə əlaqələr qurmaqdan ibarət idi. Praqa və Sofiya ilə əməkdaşlıq təcrübəsi Bakını NATO-ya üzv ölkələr ilə əməkdaşlığın həyata keçirmə formasında deyil, son məqsədlə üst-üstə düşən iki qarşılıqlı fəaliyyət modelinin hazırlanmasına gətirib çıxardı. Bolqarıstan və Çexiya ilə əməkdaşlığın Azərbaycan üçün dəyəri daha da artdı, çünki Şimali Atlantika Alyansının bir sıra əsas iştirakçıları (ilk növbədə Fransa) tez-tez ermənipərəst mövqe tuturdular. Bakının nöqteyi-nəzərindən bu, ilk növbədə onunla ifadə olunurdu ki, Paris münaqişəyə münasibətini formalaşdırarkən heç vaxt diqqəti Ermənistan tərəfinindən işğal olunan ərazilər üzərində nəzarəti bərqərar etməsinə yönəltməmişdir. Bəlkə də Ermənistan ona görə də silahlı qüvvələrinin bu ərazilərdən çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymurdu. Bundan əlavə, Fransa həmişə müstəsna olaraq münaqişənin sülh yolu ilə həllinin zəruriliyindən danışsada, Azərbaycanın işğal olunmuş ərazilərini hərbi yolla azad etmək hüququnu apriori olaraq inkar edirdi [9]. Hətta 2014-ci ildə Fransa prezidenti F.Oland problemin həllinin mümkünlüyü ilə bağlı erməni nöqteyi-nəzərini çıxış edərək: "Dağlıq Qarabağın müvəqqəti statusu və onun yekun statusu ilə bağlı qərar gələcəkdə hüquqi cəhətdən məcburi iradə ifadəsi ilə müəyyən edilə bilər, onun əhalisinin fikri zəruridir" [4].

Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsindən çıxmasına baxmayaraq NATO-ya da qoşulmağa maraqlı deyildir. Sadəcə olaraq Alyans ilə münasibətləri normallaşdırmağa çalışırdı. Kosovoda sülhməramlı əməliyyatda və Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə qoşulmaqla Azərbaycan, Alyans ilə münasibətləri genişləndirə bilmişdir. Eyni zamanda, Azərbaycan NATO-nun ayrı-ayrı üzv ölkələri ilə hərbi sahədə ikitərəfli əlaqələr qurmaq imkanlarını axtarmaqla, onlardan daha çox müasir silah sistemlərinin tədarükünə deyil, Qarabağ münaqişəsinə yanaşmanın dəyişməsinə çalışırdı. Azərbaycan hakimiyyətinin fikrincə, Qərb dövlətləri münaqişə tərəflərinə bərabər mövqe tumadıqlarına görə İrəvandan Azərbaycan torpaqlarını işğaldan azad etməyi tələb etməkdə maraqlı olmamışdılar [5]. Qarşıya qoyulan vəzifələrin həlli üçün Azərbaycan bu dövlətlərlə siyasi əlaqələri genişləndirməklə, eyni zamanda, iqtisadi sahədə də əlaqələr yaratmışdır. Qarabağ münaqişəsi ilə bağlı Fransa və ya Almaniyanın mövqeyini dəyişməyin praktiki olaraq qeyri-mümkün olacağını dərk edən Bakı NATO-ya yeni üzv olan ölkələrlə hərbi sahədə əlaqələr qurmağa ümid edirdi. Belə ki, 1994-1999-cı illərdə ayrı-ayrı NATO üzvü ölkələrlə hərbi sahədə qarşılıqlı fəaliyyətin müxtəlif modellərinin qurulmasından söhbət gedə bilməzdi. Buna baxmayaraq, maliyyə artdıqca, Bakı məqsədyönlü şəkildə yeni hərbi sursatlar əldə etmək imkanlarını axtarmağa çalışırdı. Eyni zamanda, Azərbaycan üçüncü ölkələrdən Qarabağ münaqişəsi ilə bağlı mövqeyinə istənilən diplomatik dəstəyi qazanmaq istəyirdi. Məhz bu iki hal – müasir silahlar əldə etmək istəyi və Qarabağ münaqişəsində Bakının mövqeyini siyasi cəhətdən dəstəkləməyə hazır olan ölkələrlə ikitərəfli münasibətləri istənilən formada fəal şəkildə inkişaf etdirmək istəyi – Azərbaycanın hərbi sahədə qarşılıqlı fəaliyyətinin iki modelinin formalaşmasına töhfə verdi.

Birinci model əsasən Alyans dövlətlərinin Qarabağ probleminin həlli ilə bağlı baxışlarına əsaslanaraq, Bakı bu dövlətlərlə digər sahələrdə qarşılıqlı əlaqələri dayandırmadan onlarla təhlükəsizlik məsələləri üzrə əlaqələri hərbi-diplomatik əməkdaşlıq (MDC) formatına inkişaf etdirməli idi. İkinci model Bakının iqtisadi sahədə əlaqələr qurduğu və hərbi sahədə qabaqcıl inkişafa malikqurulurdu ki, zaman keçdikcə İtaliya və İspaniya belə ölkələr sırasına daxil olmuşdular. Bakı onların hərbi-texniki əməkdaşlığın dərinləşməsində maraqlı idi və onlara özünü etibarlı tərəfdaş kimi təqdim etmişdir. Bakı hərbi sahədə NATO-ya üzv olan Avropa ölkələri ilə qarşılıqlı fəaliyyəti 2004-2005-ci illərdən etibarən əməkdaşlıq yuxarıda göstərilən modellər əsasında qurulmağa başladı. Bu siyasət Azərbayca-

nın Milli Təhlükəsizlik Konsepsiyasında (2007-ci il, may) öz əksini tapmışdı (Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. Hər iki modelə əsaslanaraq, Bakı NATO-ya üzv ölkələrlə hərbi-texniki əməkdaşlıq və hərbi əsaslı əməkdaşlıq siyasəti qurarkən, ilk növbədə, iqtisadi və siyasi qarşılıqlı fəaliyyət metodlarını birləşdirərək, onların Ermənistanla münaqişənin nizamlanmasına yanaşmalarında dəyişikliyə nail olmağa çalışırdı. Tədqiqat işinin geniş araşdırılması məqsədi ilə aşağıdakı elmi metodlar seçilmişdir: tarixi-genetik, qərarlı, institusional, həmçinin müqayişəli metodun. Qısa şəkildə ümumiləşdirilən araşdırmanın nəticələri belədir: Birinci Qarabağ müharibəsində məğlubiyyətdən sonra Azərbaycan ATƏT-in Minsk Qrupunun himayəsi altında münaqişənin həlli istiqamətində danışıqlar aparmaqla yanaşı, öz səylərini iqtisadiyyatın inkişafına və silahlı qüvvələrin modernləşdirilməsinə yönəlmişdir. Bu fəaliyyətin mühüm istiqaməti NATO-nun yeni üzvləri ilə qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın qurulması idi. Eyni zamanda, Azərbaycan həm ordusunun potensialının gücləndirilməyə, həm də Ermənistan ilə olan münaqişəni nizamlanması məsələlərində dəstək əldə etməyə yönəlmiş siyasi problemləri həll etməyə çalışırdı. Sonuncu Bakı üçün müxtəlif silah sistemləri əldə etməkdən daha vacib idi, çünki Azərbaycanın İsrail, Rusiya, Ukrayna, Cənubi Afrika, İordaniya və Türkiyə kimi ölkələrin silah bazarlarına çıxışı var idi. Praqa və Sofiya ilə qarşılıqlı əlaqənin qurulması tədricən NATO ölkələri ilə münasibətlərin iki modelinin formalaşmasına gətirib çıxardı: bir halda (Çexiya) söhbət tamhüquqlu hərbi-siyasi əməkdaşlıqdan gedirdi, digərində (Bolqarıstan) hərbi komponent. yalnız siyasi qarşılıqlı fəaliyyətə yanaşmadır. Beləliklə rəsmi Bakı, hərbi-diplomatik və hərbi-texniki əməkdaşlığı birləşdirərək, 44 günlük müharibə zamanı bəlli olduğu kimi, Qarabağ münaqişəsi ilə bağlı mövqeyinə NATO-nun yeni üzvlərindən (səmimi də olsa) dəstək ala bildi.

Nəticə. Apardığımız təhlildən belə nəticəyə gələ bilərik ki, Azərbaycanın xarici siyasətində NATO-ya üzv ölkələr, o cümlədən Bolqarıstan və Çexiya ilə ikitərəfli münasibətlərin qurulması mühüm yer tuturdu. Onlarla hərbi sahədə qarşılıqlı fəaliyyəti bir sıra iqtisadi layihələrdə əməkdaşlıqla əlaqələndirən Bakı hərbi əməkdaşlığın iki modeli - hərbi-diplomatik və hərbi-texniki əməkdaşlıq modeli əsasında həyata keçirirdi. Bunu bu ölkələrin İkinci Qarabağ müharibəsi hadisələrinə reaksiyası sübut edir. Beləliklə İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra ortaya çıxan reallıqlarda Bakı çex modelinin potensialından daha geniş istifadə etmək imkanı qazanırdı. Onu da qeyd edə bilərik ki, xarici dövlətlərlə hərbi əməkdaşlıq siyasətini həyata keçirən Azərbaycanın siyasi rəhbərliyi bir çox başqa dövlətlər kimi beynəlxalq təhlükəsizlik sisteminin səmərəsizliyi və zəifliyi ilə üzləşmişdir. Bu səbəblə də beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, bu məqsədlə sülhə təhdidlərin qarşısının alınması və aradan qaldırılması üçün təsirli kollektiv tədbirlər görməlidir. Bu reallığı dərk edən Azərbaycan beynəlxalq hüquqa müraciətini davam etdirərək, onun aliliyindən və məcburi icrasından danışaraq, maraqlarına uyğun konkret məqsədlərə nail olmaq üçün müxtəlif ölkələrlə, o cümlədən hərbi sahədə ikitərəfli münasibətlərin qurulması üçün böyük səylər göstərməyə çalışmışdır. Məhz bu şəraitin sayəsində bu gün şaqulilik prinsipi əsasında qurulmuş köhnə dünya nizamının beynəlxalq əməkdaşlığın yeni formaları ilə, o cümlədən "şəbəkə mərkəzli qarşılıqlı fəaliyyət konfiqurasiyalarına" əsaslanan formalarla əvəz olunması Azərbaycanı daha inamlı hərəkət etməsinə imkan yaradır.

ƏDƏBİYYAT

1. Армения ожидала от ОДКБ другой реакции на вторжение Азербайджана – Пашинян 16 мая, 2022. URL: https://infoteka24.ru/2022/05/16/95744/ [27.09.2024].
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası [The Concept of National Security of the Republic of Azerbaijan] (2007) URL: http://e-qanun.az/framework/13373 [27.09.2024].
3. Декларация о союзническом взаимодействии между Российской Федерацией и Азербайджан-ской Республикой. 22 февраля 2022 г. URL: http://www.kremlin.ru/supplement/5777 [27.09.2024].
4. Франсуа Олланд о вступлении Армении в ТС: «Наша цель – не осудить, а понять». 15 мая, 2014. URL:https://russia-armenia.info/node/7186?ysclid=l6jn7xypm4518035280 [27.09.2024].

5. Ильхам Алиев: за нерешенностью карабахского конфликта стоит политика двойных стандартов. 10 января 2015. URL:
https://tass.ru/mezhdunarodnaya-panorama/1689970?ysclid=l683fzrw1e208002181 [27.09.2024].
6. Корбут А. Карабахская формула войны и мира // Военно-промышленный курьер. №4(320). 3 февраля 2010.
7. Мухин В. Содружество милитаризованных государств. 2010. URL:
http://www.ng.ru/cis/2010-03-17/1_military.htm [27.09.2024].
8. Nagorno-Karabakh violence: UK and Canada foreign ministers' joint statement. URL:
https://www.gov.uk/government/news/nagorno-karabakh-violence-uk-and-canada-foreign-ministers-joint-statement [27.09.2024].
9. Николя Саркози: Франция будет вместе с Арменией идти по пути решения карабахского конфликта посредством переговоров. 17 октября 2011.
URL:https://www.panarmenian.net/rus/world/news/81094/ [27.09.2024].
10. Sümərinli C. Hərbi sahədə informasiya əldə etmək mədəniyəti: Azərbaycan və dünya təcrübəsi. Bakı: Apostrof, 2010. 72 c.
11. Шушинская декларация о союзнических отношениях между Азербайджанской Республикой и Турецкой Республикой. 16 июня 2021 г. URL: https://president.az/ru/articles/view/52122 [27.09.2024].
12. Велизаде И. Баку: в поиске баланса и в попытках привлечь внимнаание к региональной повестке. 2020.
URL:https://russiancouncil.ru/analytics-and-comments/analytics/baku-v-poiske-balansa-i-v-popytkakh-privlech-vnimanie-k-regionalnoy-povestke/ [27.09.2024].

КОНУЛЬ ГАСЫМОВА
Докторант Академии государственного управления при Президенте Азербайджанской Республики

МОДЕЛИ ВОЕННОГО СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА СО СТРАНАМИ-ЧЛЕНАМИ НАТО

Статья посвящена особенностям военного взаимодействия Азербайджана со странами-членами НАТО. Целью исследования является исследование того, может ли Азербайджанская Республика успешно продвигать свои интересы на международной арене на примере взаимодействия Азербайджанской Республики с Альянсом в военной сфере. Для достижения этой цели в рамках данной работы автором была изучена литература, освещающая различные аспекты военной политики Азербайджана, а также исследованы факторы, побуждающие Баку к сотрудничеству с НАТО и Россией в военной сфере. В данной статье также ставится цель показать закономерности развития сотрудничества Баку со странами-членами НАТО, создавшие благоприятные политические условия для Азербайджана в период Второй Карабахской войны.

Ключевые слова: Азербайджан, НАТО, ОДКБ, армяно-азербайджанский конфликт.

KONUL GASIMOVA
Doctoral student at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan

MODELS OF MİLİTARY COOPERATİON BETWEEN AZERBAİJAN AND NATO MEMBERS

The article is dedicated to the features of Azerbaijan's military interaction with NATO member countries. The purpose of the study is to investigate whether the Republic of Azerbaijan can successfully promote its interests in the international arena using the example of the interaction of the Re-

public of Azerbaijan with the Alliance in the military field. In order to achieve this goal, within the framework of this work, the author has studied the literature covering various aspects of Azerbaijan's military policy, and the factors that encourage Baku to cooperate with NATO and Russia in the military field have been investigated. This article also intends to show the regularities of the development of cooperation between Baku and NATO member countries, which created favorable political conditions for Azerbaijan during the Second Karabakh War.

Keywords: Azerbaijan, NATO, CSTO, Armenia-Azerbaijan conflict.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Kərəm Məmmədov, t.e.d. Sevinc Yusifzadə.